*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 418-424*

https://doi.org/10.62837/2024.11.418

**İSGƏNDƏROV VÜSAL VAQIF o**
**Gəncə Dövlət Universiteti**
**.**

# FÜZULİNİN GÖRDÜYÜ, VAQİFİN GÖRƏ BİLMƏDİYİ !

**Açar sözlər:** yaradıcılıq, ədəbiyyat, sənətkar, poeziya, qəzəl, klassika, janr
**Ключевые слова:** творчество, литература, мастер, поэзия, газель, классика, жанр.
**Key words:** creativity, literature, craftsman, poetry, ghazal, classical, genre

Yaradıcılığı ilə insanın azadlığını və qüdrətini böyük məhəbbətlə təbliğ edən İmadəddin Nəsimi ədəbiyyatımızda yeni mərhələ təşkil edir. Böyük sənətkar Yaxın Şərqin üç sənət-poeziya dilində möcüzələr yaratmağa müvəffəq olmuşdur.Həyatı qanlı müharibələrin, böhranların cövlan etdiyi dövrə təsadüf edən Nəsimi yaradıcılıq gücü ilə Yaxın Şərq ədəbiyyatında özünəməxsus yer tutur. Əsasını insana yeni münasibət təşkil edən hürufilik konsepsiyası Nəsimi yaradıcılığında bədii əksini tapmışdı. Şair yaradıcılığında insanı ən üstün varlıq kimi dəyərləndirir, dünyanın ötəri,ancaq yaradıcılıq əzminin və ideyaların ölməz olduğuna və zamandan yuxarıda dayandığına inanır, inandırır. Mənəvi sərvətin - sözün hər zaman hakimi-mütləq olduğuna əminlik, inam aşılayır.

Nəsimi özündən sonrakı sənətkarlara əhəmiyyətli dərəcədə təsir etmiş, hətta Xətayi, Füzuli kimi nəhəng sənətkarların yaradıcılığı ilə Nəsimi yaradıcılığı arasında səsləşmələr, paralellər tapmaq çətin deyildir. Poeziyada dünyanın vəfasız olmasından şikayət motivləri, bəlkə də, poeziyanın özü ilə yaşıddır.Qətran,Xaqani,Nizami kimi nəhəng şairlərin yaradıcılığında bu məqamlara tez-tez rast glmək olar.

Humanist idellar şairi Nəsiminin divanında belə bir qəzəl vardır:

Bivəfadır çün bu aləm, kimdən istərsən vəfa?
Bivəfa aləmdə sən yari-vəfadar istəmə! [1;225]

Dünya vəfasızdır, belə bir məqamda kimdən vəfa umursan? Vəfasız aləmdə sən vəfalı yar istəmə. Misrada sözlərin düzümü,söz seçimi,təkrir və alliterasiya şairin sözə nə qədər həssas yanaşdığını,sənətkarlıq qüdrətini,ustalığını təsdiq edir.

Az qala həməsri sayılan böyük Füzulinin "Leyli və Məcnun"poemasında "Bu, Məcnunun Novfəl ilə dərdi-dil ədasıdır və şərhi-təfsili – macərasıdır" bölümündən sonra Məcnunun dilindən verilən qəzəli Nəsiminin yuxarıda bəhs etdiyimiz qəzəli ilə yaxından səsləşir.

Vəfa hər kimsədən kim istədim,ondan cəfa gördüm,
Kimi kim,bivəfa dünyada gördüm,bivəfa gördüm.[2;75]
Hər kimsədən vəfa umdumsa, ondan cəfa gördüm.
Kimi kim bivəfa dünyada gördüm, onu bivəfa gördüm.

Kimə kim dərdimi izhar qıldım istəyib dərman,
Özümdən həm betər bir dərdə onu mübtəla gördüm.
Kimə ki dərdimi söyləyib ondan dərman istədim,
Özümdən daha betər bir dərdə tutulmuş gördüm.
Mükəddər xatirimdən bir kimsə qılmadı qəm dəfin,
Səfadən dəm uran həmdəmləri əhli-riya gördüm.

Kimsə qəmli könlümün qəmini azaltmadı,yox eləmədi,səfadan danışan həmdəmləri riyakar gördüm.

Əgər su damənin tutdum, rəvan üz döndərdi məndən
Və gər güzgudən umdum sidq əks-müddəa gördüm.

(Nə vaxt ki su ətəyini tutdum, axıb məndən üz çevirdi, haçan güzgüdən sidq umdum, iddəamın əksini gördüm).[8]

Ayaq basdım dəri-ümmidə sərgərdanlıq əl Verdi,
Hünər sərriştəsin tutdum,əlimdə əjdəha gördüm.

(Ümid qapısına ayaq basdım, sərgərdanlıq əl verdi, hünər ipinin ucunu tutdum, əlimdə əjdəha gördüm.)

Mənə göstərdi gərdun tirə bəxtim kövkəbin yüz gəz,
Məni-bədbəxt ona hərgah kim baxdım,qara gördüm.

(Fələk qara bəxtimin ulduzunu mənə yüz kərə göstərdi,mən bədbəxt ona haçan baxdım,onu qara gördüm).

Füzuli,eyb qılma üz çevirsəm əhli-aləmdən,
Nədən kim hər kimə üz tutdum,ondan yüz bəla gördüm.

(Füzuli, dünya adamlarından üz çevirsəm,məni qınama, çünki kimə üz tutdumsa,ondan yüz bəla gördüm).

XVIII əsrin əvvəllərində Şamaxıda dünyaya gəlmiş, Ağa Məsih Şirvaninin müasiri olmuş Nişat Şirvani bu qəzələ mürəbbe janrında cavab vermişdir. Böyük tədqiqatçı Salman Mümtaz bir çox dəyərli klassiklərimiz kimi, Nişat Şirvaninin də əsərlərini toplayıb, kitab halında nəşr etdirmiş və həmin kitaba Nişatın şeirləri ilə yanaşı, onun şeirlərinə nəzirə və təzmin yazan Hacıağa bəy Zülali, Məhəmməd Hüseyn xan Müştaq, Ağa Məsih Şirvani, Fətəli bəy Hali, Qasım bəy Zakir, xanım Kəminə, Mirzə Əliəsgər Növrəs, Məhəmmədəli bəy Məxfi, Molla Məhəmməd Katib, Seyyid Əzim Şirvani, Abdullah bəy Asi, Xaliqi, İskəndər bəy, Mirzə Sadiq, Əbdüssəməd bəy Aşiq, Molla Pənah Vaqif, Şuxi və Sabir kimi şairlərin əsərlərini də daxil etmişdir Nişatın "Görmədim" rədifli mürəbbesinə bir çox şairlər, o cümlədən ədəbiyyatımızda realizmin böyük nümayəndəsi M.P.Vaqif idə nəzirə yamışdır. Məzmun etibarilə bu əsərlərdə oxşarlıq olsa da, hətta bəzi məqamlarda misra və söz eyniliyi nəzərə çarpsa belə,hər şair zamanının dərin, fəlsəfi suallarına özünəməxsus şəkildə cavab verməyə cəhd etmişdir.

Nişatın hər təbibə dərdinin danışıb dərman görməyən lirik qəhrəmanı ilə Füzuli qəhrəmanları arasında yaxınlıq göz önündədir. Bu lirik qəhrəman həkimlərə, ziyarətgahlara şəfa üçün aparılan Məcnunu xatırlatırmı?

Bildilər dərdimi, yoxdur dedilər dərmanın..

Və ya:

Dərdimi aləmdə pünhan tutduğum naçardır,
Uğrasaydım bir təbibə aşikar etməzmidim?

Eləcə də:

Çəkməyincə çareyi-dərdimdə zəhmət, bilmədin,
Kim olur dərmani-dərdi-eşq düşvar, ey həkim!

Nişat yazır:

Hər təbibə söylədim dərdim, dəvasın görmədim,
Möhnətü -dərdü-qəmin heç intəhasın görmədim.
Bu cahanın bir həqiqi aşinasın görmədim.
Hər kimin çəkdim cəfasın, bir vəfasın görmədim.

Nəsiminin və Füzulinin orta əsrlərdə gördüyü vəfasızlıq,riya əhli,qara bəxt ilə Nişat və Vaqifin Yeni dövrdə görə bilmədiyi dürüstlük, ədalət, kərəm,mərhəmət duyğuları əslində eyni divarın iki müxtəlif üzüdür. Nizamişünas alim professor Xəlil Yusifli Vaqifin həyatı və yaradıcılığından bəhs edərkən yazır:"XVIII əsrin sevinci, kədəri, bəzən ziddiyyətləri bu poeziyada öz parlaq əksini tapdığına görə bu əsri şeirimizin Vaqif əsri kimi qiymətləndirmək doğru olardı". [7; 68]

Vaqif yazır:

Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm,əyri gördüm,özgə babət görmədim. [3;185]

Bu misralarla Məcnunun dilindən verilən qəzəl arasında fikir və məzmun bağlılığı açıq-aydın hiss olunur.

Nişat yazır:

Cövrünü çəkdim əbəs hər nakəsü bədtinətin,
Payimalı oldum axır gərdişi-kəmfürsətin,
Həm rəfiqü həmdəmin, yarın, həmi həmsöhbətin,
Hər kimin çəkdim cəfasın, bir vəfasın görmədim.

"Başı ağaran və ruzigarı gündən-günə qara olan" Vaqif də qədirbilməz yardan şikayət edir:

Qədr bilməz həmdəm ilə eylədim ömrü təbah…

Nişat "rəfiqü-həmdəmin" vəfasını görmədiyi kimi Vaqif də "camal sahibi olan həmdəmin" axırını təsvir edir:

Həmdəmi-sahibcəmalın axırın gördüm tamam,
Başədək bir hüsnü-surət, qəddü qamət görmədim.

Nişat yazır:

Olmadı dünyada hərgiz bir müvafiq həmdəmim,

Hər kimin çəkdim cəfasın, bir vəfasın görmədim.

Vaqif bu beytin daxili məzmunu ilə vəhdət təşkil edən aşağıdakı misrada "hər kəs hər kəsə yaxşılıq etsə yaman olur"qənaətinə gəlir:

Xəlqi-aləm bir əcəb düstur tutmuş hər zaman,
Hansı qəmli könlü kim, sən edər olsan şadiman,
O sənə, əlbəttə ki, bədguluq eylər, bigüman,
Hər kəsə hər kəs ki, etsə yaxşılıq, olur yaman,
Bulmadım bir dost ki, ondan bir ədavət görmədim.

Nişat mürəbbesində bəndlərdən biri Füzulinin bir misrası ilə oxşarlıq baxımdan diqqəti cəlb edir:

Bəxt isə dönmüş, egər iqbal ise olmuş yaman,
Möhnətü qəm çekmək ilen öldüm axır mən, aman,
Qövmü, qardaşı, rəfiqi bir-bir etdim imtahan
Hər kimin çəkdim cefasın, bir vefasın görmədim.

Füzulinin tərcibəndi belə başlayır:

Mən kiməm? – Bir bikəsü-biçarəvü-bixaniman,
Taleyim aşüftə, iqbalım nigun, bəxtim yaman…[5;331]

Əlavə olaraq vurğulamaq lazımdır ki, tərcibənd Azərbaycan klassik şeirində məhəbbət, gözəllik, ictimai-fəlsəfi mövzularda yazılmış lirik janrdır. Tərcibəndin hər bəndi 8, 10 və ya 12 misradan ibarət olur. Birinci bəndin bütün misraları qafiyələnir: a.a.a.a.a.a.a.a.a.a.a.a. Digər bəndlərdə sonuncu beytdən başqa bütün misralar həmqafiyə olur: b.b.b.b.b.b.b.b.b.b.a.a. Birinci bəndin son iki misrası, adətən, digər bəndlərin sonunda nəqərat şəklində təkrarlanır.

Görünüyü kimi, Nişatın yaradıcılığında Füzulli təsiri açıq-aydın hiss edilir.

Möhnətü qəm çekmək ilen öldüm axır mən, aman.

Möhnət-qəm çəkməkdən aman diləyən Nişatın harayı yenə də Füzulinin yuxarıda adı çəkilən tərcibəndi ilə yaxından səsləşir:

Söylərəm: ey gül ki, səndən ayrılıq düşvardir.
Sənsiz olman ayrı möhnətdən, bəladən bir zəman,
Ə-əman, hicran bəlavü-möhnətindən, əl-əman!

Füzulinin "Leyli və Məcnun"poemasında "Bu, Məcnunun Leyliyə izhari-hali-zar etdiyidir" başlığı altında verilən bölümdə Məcnun başına gələn müsibətləri sadalayır və belə bir qəzəl deyir:

Ah kim, bir dəm fələk rəyimcə dövran etmədi,
Vəsl dərmanilə dəfi-dərdi-hicran etmədi.
Yardan min dərdi-dil çəkdim, bu həm bir dərd kim,
Biluin dərdi-dilim, bir dərdə dərman etmədi. [2;144]

Nişatın mürəbbesinin son bəndi ilə yuxarıdakı qəzəlin ilk beyti arasında forma və məzmun baxımından ciddi fərq yoxdur, hətta bir misrada sanki sözlərin yeri dəyişdirilib:

Ey Nişat, oldum qemi-hicr ilə sərgerdan, haray,
Dönmədi reyimlə hərgiz gərdişi-dövran, haray.

Nişat bu vəfasızlıq, xəyanət, nifrət yuvası olan dünyadan qaçıb müqəddəslərə sığınır:

Ya Əmirilmömінin, Heydər, şahi-mərdan, haray
Hər kimin çəkdim cəfasın, bir vəfasın görmədim.

Bu yanaşmanı Vaqifin müxəmməsində də görürük, Vaqif müxəmməsində son bəndlərdən birində imama əl açır, ondan dünyaya təzədən nur saçmağı, şeytanın məğlub olmasını istəyir.

Ya imam-əl-insü vəlcinnü şahənşahi-ümur,
Getdi din əldən, bu gündən böylə sən eylə zühur,
Qoyma kim, şeytani-məlun eyləyə imanə zur,
Şöleyi-hüsnünlə bəxş et tazədən dünyayə nur
Kim, şəriət məşəlində istiqamət görmədim.

Ya insanlarn və cinlərin imamı,işlənən işlərin şahlar şahı, - müraciəti ilə başlayan bu bənddə din-imanın əldən getdiyindən böyük narahatlıq duyan şair şəriət qanunlarının pozulmasına etiraz edir. Qeyd etmək yerinə düşər ki, ədəbiyyat tarximizin qiymətli salnamələrini yaradan Salman Mümtazın və Firudin bəy Köçərlinin kitablarında verilən bu bənd Vaqif yaradıclığının sonrakı dövr nəşrlərində hansı səbəbdənsə verilməmişdir.

Firudin bəy Köçərli yazır:"Molla Pənah Vaqifin bir çox şeiri-müstəzadı və müxəmməsatı vardır".Sonra da "Görmədim"müxəmməsini nümunə göstərir və bu mənbədə bütü bəndlər əks olunmuşdur. [6;152]

Ey xoş onlar kim Məhəmməd Mustafanı sevdilər,
Oldular aşiq, Əliyyül-Mürtəzanı sevdilər,
Sidqü ixlas ilə pənc ali-əbanı sevdilər,
Çardəh məsumtək müşkülgüşanı sevdilər,
Dəxi onlardan gözəl yaxşı cəmaət görmədim. [6;153]

İstər Nişatın şəxsi həyatından doğan kədəri ifadə edən mürəbbesi, istərsə də Vaqifin ictimai ziddiyyətlrdən yoğrulan məşhur müxəmməsi ədəbiyyatımızın inciləri sayılmağa layiqdir.

**Ədəbiyyat:**

1. İ.Nəsimi:"İraq divanı".Bakı.1987.
2. Məhəmməd Füzuli."Leyli və Məcnun". Bakı.1993.
3. Molla Pənah Vaqif.."Əsərləri".Bakı.2004.
4. Nişat Şirvani:"Görmədim" https://az.wikisource.org/wiki/Müəllif:Nişat_Şirvani
5. Məhəmməd Füzuli:"Əsərləri".Bakı.2005.

6. Firudin bəy Köçərli:"Azərbaycan ədəbiyyatı".1-ci cild.Bakı.2005.
7. Molla Vəli Vidadi.Molla Pənah Vaqif."Əsərləri". (Tərtib edən :Xəlil Yusifli).
8. "Füzuli qəzəllərinin şərhi". 4 cilddə.(Şərh edən:Sabir Əlim Xəliloğlu).

## FÜZULİNİN GÖRDÜYÜ, VAQİFİN GÖRƏ BİLMƏDİYİ !

Yaradıcılığı ilə insanın azadlığını və qüdrətini böyük məhəbbətlə təbliğ edən İmadəddin Nəsimi ədəbiyyatımızda yeni mərhələ təşkil edir. Böyük sənətkar Yaxın Şərqin üç sənət-poeziya dilində möcüzələr yaratmağa müvəffəq olmuşdur. Həyatı qanlı müharibələrin, böhranların cövlan etdiyi dövrə təsadüf edən Nəsimi yaradıcılıq gücü ilə Yaxın Şərq ədəbiyyatında özünəməxsus yer tutur. Əsasını insana yeni münasibət təşkil edən hürufilik konsepsiyası Nəsimi yaradıcılığında bədii əksini tapmışdı.

Şair yaradıcılığında insanı ən üstün varlıq kimi dəyərləndirir,dünyanın ötəri, ancaq yaradıcılıq əzminin və ideyaların ölməz olduğuna və zamandan yuxarıda dayandığına inanır, inandırır. Mənəvi sərvətin - sözün hər zaman hakimi - mütləq olduğuna əminlik,inam aşılayır.

Nəsimi özündən sonrakı sənətkarlara əhəmiyyətli dərəcdə təsir etmiş, hətta Xətayi, Füzuli kimi nəhəng sənətkarların yaradıcılığı ilə Nəsimi yaradıcılığı arasında səsləşmələr, paralellər tapmaq çətin deyildir.

Ədəbiyyatımızda realizmin böyük nümayəndəsi M.P.Vaqif də öz növbəsində Nişatın mürəbbesinə eyni rədifli müxəmməslə cavab vermişdir. Məzmun etibarilə bu əsərlərdə oxşarlıq olsa da, hər şair zamanının dərin, fəlsəfi suallarına özünəməxsus şəkildə cavab verməyə cəhd etmişdir.

**Tch.V.V.Isgenderov**

**Summary**

**WHAT FUZULI SAW AND VAGIF COULD NOT SEE**

Imadaddin Nasimi, who with his creativity preached the freedom and power of man with great love, forms a new stage in our literature. The great artist succeeded in creating miracles in the three artistic and poetic languages of the Middle East. Nasimi, whose life coincided with a period of bloody wars and crises, occupies a unique place in Middle Eastern literature with his creative power. The concept of Hurufism, which is mainly a new attitude towards man, found its artistic reflection in Nasimi's work.

In his work, the poet values man as the most superior being, believes and convinces that beyond the world, only creative determination and ideas are immortal and stand above time. He instills confidence and faith that spiritual wealth - the word is always the ruler - absolute.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 418-424*

Nasimi significantly influenced the artists who came after him, and it is not difficult to find parallels and similarities between the work of even great artists such as Khatai and Fuzuli and Nasimi's work.

M.P. Vagif, a great representative of realism in our literature, in turn responded to Nishat's murabba with the same line. Although there is a similarity in content in these works, each poet tried to answer the deep, philosophical questions of his time in his own way.

**Преп.В.В.Искендеров**

**Резюме**

**ЧТО ВИДЕЛ ФИЗУЛИ, ВАГИФ НЕ МОГ ВИДЕТЬ !**

Имадедин Насими, своим творчеством с большой любовью пропагандирующий свободу и силу человека, формирует новый этап в нашей литературе. Великому художнику удалось создать чудеса на трех художественно-поэтических языках Ближнего Востока. Совпавшая с эпохой кровопролитных войн и кризисов жизнь Насими своей творческой силой, занимает неповторимое свойственное ему место в литературе Ближнего Востока. Концепция хуруфизма, основанная на новом отношении к человеку, нашла художественное отражение в творчестве Насими.

В своем творчестве поэт ценит человека как высшее существо, хозяина мира, но верит и убеждает, что творческая решимость и идеи бессмертны и стоят выше времени. Он вселяет уверенность и доверие к этому духовному богатству - слову. всегда является абсолютным правителем.

Нетрудно найти сходство и параллели между творчеством Насими и творчеством таких великих художников, как Хатаи и Физули, оказавших большое влияние на художников после него.

М.П.Вагиф, великий представитель реализма в нашей литературе, в свою очередь, с одинаковым уровнем красноречия ответил на мураббе Нишата. Хотя по содержанию эти произведения схожи, каждый поэт в своей книге пытался ответить на глубокие, философские вопросы своего времени свой путем.

**Rəyçi: dos. Yusifli Afaq X.q.**